# Özbəkistanda Azərbaycan musiqisi günləri

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə Daşkənd və Səmərqənd şəhərlərində Azərbaycan musiqisi günləri keçirilir.**



Səmərqənd şəhər Gənclər sarayının böyük konsert zalında baş tutan tədbirdə dövlət və hökumət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, yerli azərbaycanlılar və özbəklər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Səmərqənd şəhər Gənclər sarayının foyesində Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil edilmiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan foto və nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Azərbaycan mədəniyyətinə aid böyük tədbir və konsertlərin demək olar ki, hər il qədim Səmərqənd şəhərində keçirildiyini və Azərbaycan mədəniyyəti, musiqisinə hər zaman qardaş ölkədə böyük marağın olduğunu vurğulayıb.

Samir Abbasov Azərbaycan və özbək xalqlarının tarixi yaxınlığını, ortaq mədəni dəyərlərə sahib olmasını vurğulayaraq, "Özbəkistanda Azərbaycan musiqisi günləri"nin Azərbaycan mədəniyyətinin böyük hamisi Ümummilli Lider Heydər Əliyevə həsr edildiyini bildirib.

Daha sonra "Özbəkistanda Azərbaycan musiqisi günləri" çərçivəsində Azərbaycan və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova "Can Azərbaycandan can Özbəkistana sevgilərlə" adlı konsert proqramı ilə çıxış edib. Azərbaycan və özbək mahnılarını ifa edən Gülyanaq Məmmədova xalq mahnılarımızı, muğamlarımızı səsləndirərək tamaşaçıların çoxsaylı alqışları ilə qarşılanıb.

Qeyd edək ki, Azərbaycan musiqilərinə tarixi Səmərqənd şəhərində böyük maraq göstərilir, şəhərdə keçirilən tədbirlərdə, el şənliklərində, habelə xalq arasında mərasimlərdə Azərbaycan milli musiqisi sevgi ilə ifa olunur.

Azərbaycan.- 2023.- 7 iyun.- S.11.